

“Məmməd Əmin Rəsulzadənin xaricə göndərdiyi tələbələrin taleyi çox faciəvi olub”.

Bu sözləri “Axar.az”a açıqlamasında professor Vaqif Sultanlı deyib.

O, bununla bağlı Azərbaycanda ən yaxşı araşdırma aparan şəxsin Mövsüm Əliyev olduğunu, lakin onun həyatda olmadığını bildirib: “Bununla bağlı materialları Mövsüm Əliyev toplayırdı. Onların bioqrafiyasını yığırdı, çünki onların hamısını müəyyənləşdirmək mümkün deyildi. Onların taleyi necə olub, hara gediblər, bəlli deyil. Yalnız onu deyə bilərəm ki, onların bir qismi gəlib Azərbaycana, bir qismi də çıxıb gediblər. Məsələn, mənim yadımdadır, o vaxt Mövsüm Əliyev Rəsulzadənin iki məktubunu tapmışdı. O, məktublarda iki tələbənin adı keçirdi”.

V.Sultanlı həmçinin Məmməd Əmin Rəsulzadə ilə bağlı tədqiqatçının tapdığı bütün sənədlərin itdiyini qeyd edib. O, M.Əliyevin bu tələbələrin faciəvi taleyi ilə bağlı yalnız mətbuatda çap etdirdiyi materialların qaldığını bildirib:
“Hə, sonradan onun evini buldozerə verdilər. Kimsə oranı alıb ev tikmək istəyirdi. Ona görə də hamısı batıb getdi. Yəni nə çap etdiribsə, o qaldı... Bu tələbələrin taleyi çox faciəvi olub. Pulları olmadığından kiminsə evində, bağında işləyiblər ki, yaşaya bilsinlər. Azərbaycan hökuməti onlara pul göndərə bilmirdi vaxtı-vaxtında...

Son olaraq onu deyə bilərəm ki, tələbələr Cümhuriyyət işğala uğrayana qədər M.Ə.Rəsulzadəyə, Ə.Topçubaşova müraciət ediblər”.